# “Uşaq tamaşa zamanı darıxmamalıdır”

## Kukla Teatrının direktoru Rəşad Əhmədzadənin sözlərinə görə, əgər valideyn tamaşanı bəyənmirsə, övladını bir daha teatra gətirmir

**Son bir neçə ayda Abdulla Şaiq adına Kukla Teatrının əldə etdiyi uğurlar diqqət mərkəzindədir. Belə ki, ”Oyuq” teatr studiyasının ”Caz karuseli” Beynəlxalq Müsabiqəsində əldə etdiyi qalibiyyət, 15-19 aprel tarixlərində Rusiya Federasiyasında baş tutan XI Beynəlxalq ”Muraveynik” Kukla Teatrları Festivalındakı uğurlu çıxış və nəhayət, aprelin 27-də ”Melodiya”, 28-də isə ”Zəng” tamaşalarının uğurlu premyeralarından sonra teatrın direktoru və ”UNİMA” Azərbaycan Milli Mərkəzinin prezidenti Rəşad Əhmədzadə ilə görüşməyi özümüzə borc bildik.**

**- İlk olaraq teatrınızın əldə etdiyi nailiyyətlərə görə Sizi təbrik edirik. İstərdik ki, söhbətimizə Kukla Teatrının son iki ayda əldə etdiyi uğurlardan başlayaq.**

- Son illərdə dövlət tərəfindən bütün teatrlara göstərilən qayğı göz önündədir. Bu qayğının cavabında teatr yeni tamaşalar hazırlamaqla özünü təsdiqləməlidir. Biz də bu yöndə çox çalışırıq. Kukla Teatrının tamaşaları digər teatrlara nisbətən bir qədər qəlizdir. Çünki burada hazırlanan tamaşalar həm uşaqlar, həm də valideynlər tərəfindən sevilməlidir. Əgər tamaşanı valideyn bəyənmirsə, övladını bir daha teatra gətirmir. Uşaqlar bəyənmirsə, teatrın əməkdaşları onu heç bir şəkildə zalda oturda bilməz. Artıq müəyyən qrup tamaşaçılarımız yaranıb ki, onlar hər həftə mütəmadi olaraq tamaşanı izləməyə gəlirlər. Hazırda bizim repertuarımızda 27 tamaşa var.

Son zamanlar respublikada keçirilən mötəbər tədbirlərin bütün teatrlara, o cümlədən Kukla Teatrına böyük təsiri olub. Bu festivallar sayəsində dünya teatrları ilə tanış oluruq. Tanımaqdan əlavə, həm də festivallar tanınmaq üçün çox gözəl fürsətdir. Festivallar yaradıcı kollektivlərin inkişafına xidmət edir. Təsəvvür edin ki, bir neçə il bundan qabaq festivala getmək üçün dəvət gözləyirdik. Artıq 5-6 ildir ki, bizə təklif olunan dəvətlər arasında seçim edirik. Dövlət proqramına əsasən Mədəniyyət və Turizm Nazirliyi tərəfindən teatrımızda ”Oyuq” teatr studiyası yaranıb. O studiyada yaradıcı məşqlər də gedir. İncəsənət Universitetindən gələn aktyorları işə götürmək üçün ilk olaraq həmin studiyada yaradıcı məşqlər gedir. Belə ki, orada kuklaların oyunu, mexanizmi, danışıq tembrinin düzəldilməsi mənimsənilir. ”Oyuq” teatr studiyasının azyaşlı studiyası da var. Bu qrup fevralda Sankt-Peterburq şəhərinə dəvət aldı. Bizim uşaqlar orada ”Caz karuseli” müsabiqəsinin qalibi oldular. Uğurumuz elə həmin ərəfədən başladı.



İştirak etdiyimiz digər festivala gəlincə, ilk olaraq onu qeyd edim ki, biz bu il 8 festivaldan dəvət almışıq. Ancaq dəvət aldığımız hər festivala da getmirik. Bir neçə dəfə iştirak etdiyimiz festivalda zəif teatrların iştirakı olduğunun şahidi olmuşuq. Rusiya Federasiyasının İvanovo şəhərində baş tutan XI Beynəlxalq ”Muraveynik” Kukla Teatrları Festivalına gəlincə, o festivala getmək üçün onlar bir ay mütəmadi şəkildə bizə müraciət etdilər ki, biz də orada iştirak edək. Biz də Kamran Şahmərdanın ”Ağ və Qara” tamaşası ilə festivalda iştirak etdik. Tamaşamız bitdikdən sonra böyük alqışlarla




qarşılandı. Tamaşadan sonra bir sıra festivallara dəvət aldıq. Tamaşamızı yüksək səviyyədə qiymətləndirdilər. Bizi digər festivallara dəvət edən insanlar həmin tamaşanı onların festivallarında da göstərməyimizi istədilər. Bizim tamaşamızı birbaşa festivala dəvət etdilər.

”Melodiya” və ”Zəng” tamaşalarına gəlincə, həmin tamaşalar böyüklər üçün nəzərdə tutulub. Tamaşaların ikisi də Qurban Məsimovun quruluşunda hazırlanıb. Tamaşalar sözsüzdür, hər iki tamaşa musiqi və hərəkətlərdən ibarətdir. Tamaşaların premyeralarında izləyicilər müsbət fikirlər bildirdilər. Biz də tamaşaçıların rəylərini nəzərə alıb, həmin tamaşaları repertuarımıza daxil etmişik. Qeyd edim ki, mayın 14-də rejissor Anar Məmmədovun quruluşunda hazırlanan ”Gözəl və bədheybət” tamaşasının premyerası keçiriləcək. Tamaşanın quruluşçu rəssamı Rəvanə Yaqubovadır. İlin sonunda ”Qırmızıpapaq” tamaşası Qurban Məsimovun quruluşunda hazırlanacaq.

**- Rəşad müəllim, festivallar teatrın inkişafına nə verir?**

- İstənilən yaradıcı təşkilat üçün festival yaradıcılıq mübadiləsidir. Bu mübadilə direktorun, yaradıcı heyətin inkişafına xidmət edir. Bizim teatrda son illərdə Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə 10-dan artıq tamaşa hazırlanıb. Bu tamaşaların əksər rejissorları xaricdən - Rusiyadan, Gürcüstandan, Ukraynadan dəvət olunub. Bəzi tamaşaların kuklaları Finlandiyada, bəziləri Gürcüstanda hazırlanıb. Bu illər ərzində əldə etdiyimiz nailiyyətlərdən biri də odur ki, həm ölçüsü, həm də mexanizminə görə marionet kukladan tutmuş 7 metrəyədək kukla istehsal edə bilirik.

**- Hazırda uşaq ədəbiyyatı ilə məşğul olan dramaturqlarımız çox azdır. Tamaşa hazırlayarkən uşaq pyeslərini necə əldə edirsiniz?**

- Bizim repertuarda Nizami Gəncəvidən tutmuş Şekspirə qədər, klassikadan tutmuş müasir ədəbiyyata qədər bütün mövzulara müraciət olunur. Müraciət etdiyimiz əsərlər Bədii Şurada qəbul olunur. Pyesi oxuyanda quruluşçu rejissor, rəssam və aktyorlar özləri anlayırlar ki, bu əsər bizim teatrda alınar, yoxsa yox. Müəyyən pyeslər var ki, o bizim teatrımız üçün klassikaya çevrilib. ”Cırtdan”, ”Tıq-tıq xanım”, ”Göyçək Fatma”, ”Məlikməmməd”... Bizim teatrın repertuarını onlarsız təsəvvür etmək olmaz. Valideynlər də, uşaqlar da mütəmadi olaraq bizə zəng edib, həmin tamaşaların vaxtlarını soruşurlar. İstər tanınmış, istərsə də repertuarımızda olan tamaşalar bəyənilirsə, baxılırsa, vaxtaşırı olaraq onları da yeniləyirik. Çalışırıq ki, uşaqların zövqünü tuta bilək.

**- Müasir uşaqların zövqünü tuta bilmək üçün teatrdan nə tələb olunur?**

- Böyüklərin zövqünü tuta bilmək üçün nə tələb olunursa, uşaqların da zövqünü tutmaq üçün onlar tələb olunur. Tərbiyəvi əhəmiyyəti olan, rəngarəng tamaşa hazırlanmalıdır. Uşaq tamaşa zamanı darıxmamalıdır. Əgər uşaq darıxırsa, heç bir qüvvə uşağı zalda oturmağa məcbur edə bilməz. Premyeralarımız, yaxud təzə tamaşalarımız olanda aşağıda teatrın yaradıcı heyəti valideynlərlə diskussiyalar aparır, onların fikirlərini öyrənir. Valideynlərin fikirləri əsasında təsbit edə bilirik ki, yeni tamaşa uzunömürlü olacaq, yoxsa yox. Şükürlər olsun ki, tamaşalarımız hələlik bəyənilərək izlənilir.

**- Teatr ötən həftə hazırladığı son iki tamaşanı böyüklər üçün nəzərdə tutmuşdu. Böyüklər üçün hazırlanan tamaşa hansı ehtiyacdan yaranmışdı?**

- Uşaq və böyük teatrı deyəndə mən bir qədər narahat oluram. Əslində 3 yaşında uşaq var ki, gedib opera və baletə baxır. 20-25 yaşında elə adamlar var ki, heç tamaşaya baxa bilmirlər. Tamaşa əsasən baxımlı olmalıdır. Əgər baxımlı olarsa, uşaq tamaşanı maraqla izləyir. Böyüklərə gəldikdə isə biz tez-tez festivallara dəvət alırıq. Uşaqlar üçün nəzərdə tutulmuş və festivallar üçün nəzərdə tutulmuş tamaşalar ayrı-ayrıdır. ”Ağ və Qara” tamaşası ilə uzun müddətdir ki, festivallarda iştirak edirik. Hər festival iki ildən bir keçirilir. Bizi hər dəfə festivala dəvət edəndə eyni tamaşa ilə gedə bilmərik. Düşündük ki, artıq bizim festival tamaşalarının da yenilənmə vaxtı gəlib çatıb. Və həmin tamaşaları yeniləməyə başladıq, həm böyüklər, həm də festivallar üçün tamaşalar hazırladıq. ”Melodiya” və ”Zəng” tamaşalarının hazırlanması məhz bu zərurətdən yarandı.

**- Digər teatrlara nisbətən Kukla Teatrında biletlərin qiymətləri aşağıdır,. 2-3 manat civarındadır. Halbuki, bu teatrda aktyorlarla bərabər, kuklaların hazırlanmasına da kifayət qədər xərc tələb olunur. Belə olan halda kassadan gələn pullarla teatrın xərclərini necə ödəyirsiniz?**

- Ümumi götürdükdə sözünüzdə həqiqət var. Kukla Teatrı elə bir teatrdır ki, buraya cəmiyyətin bütün təbəqələrinin uşaqları gəlməlidirlər. Aztəminatlı ailələrin tamaşalarımızda iştirak etmələri üçün biletlərin qiymətlərini hər kəsə uyğun etmişik. Onlar uşaqdır. Hesab edirəm ki, uşaqların da əylənməyə, öz dünyalarında şənlənməyə ehtiyacları var.

**Xəyalə Rəis**